KREDO

№ 33 (1289) 20 noyabr 2025-ci il

# TÜRKMANIN XATİRƏSİNƏ YAZILANLAR

*Bu şeirin müəllifi bacım oğlu, şəhid Türkman Məmmədovun komandiri olmuş Salman Səlimovdur.*

*Beş ildir Türkmanın qulluq etdiyi hərbi hissənin batareya komandiri, kapitan Elman Mirzəyev, hərbi hissənin təlim-tərbiyə işləri üzrə müavini mayor Yalçın Hüseynov, manqa komandiri Xanoğlan Cəfərov, mayor Seymur Şükürov, baş gizir Elnur Mikayılov, Məhəbbət Əzizov və başqaları bütün bayramlarda Türkmanın məzarını və valideyinlərini ziyarət edir, onlarla təskinlik verirlər. Onların bu ehtiramı Vətən övladlarına olan sonsuz sayğıları, dərin minnətdarlıqlarıdır...*

Hüseyn İSAOĞLU



### TANRI DƏRGAHINA KÖÇÜB GETMİSƏN

*Seri əsgərim olmuş, şəhid Türkman Yolcu oğlu Məmmədovun əziz xatirəsinə həsr etmişəm.*

Məzarın üstünə gəlmişəm Türkman,
Tanrı dərgahına köçüb getmisən.
Həmişə, hər zaman yaşayacaqsan,
Dirilik suyunu içib getmisən.

Biz qırx nəfər idik, qırx döyüşçüydük,
Sən çıxıb gedəli tək qaldıq, qardaş!
Birlikdə olaydıq deyirəm yenə,
Eviniz hardaydı? Bilməyəydim kaş.

Atanı görmədim yanında heç vaxt,
İndisə atanda görürəm səni.
Qırx dörd gün döyüşdə yata bilmədim,
İndi hər yatanda görürəm səni.

Səninlə tanışlıq gözəl olsa da,
Sənin şad gününə gələ bilmədim.
Qardaş, xoş günündə, gözəl günündə,
Sevinə bilmədim, gülə bilmədim.

Atanı, ananı ağlayan görüb,
Onlara təskinlik verə bilmədim.
Zəfər bayramında tər çiçəkləri-
Ayağın altına sərə bilmədim.

Üzümü söykədim məzar daşına,
Qurumaq bilmədi gözlərimdə yaş.
Əlimdə bir dəstə qərənfil ilə,
Səninlə görüşə gəlmişəm, qardaş!

*Salman SƏMƏDOV,*
*ehtiyatda olan baş gizir*